# Ankara Bəyannaməsi türk dünyasının birliyinin təzahürüdür

**Yanvarın 29-da Ankarada Türkiyə, Azərbaycan və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün nəticələrinə dair Ankara Bəyannaməsi qəbul edilib.**




Bəyannamədə qeyd olunur ki, Ankara, Bakı və Daşkənd qarşılıqlı etimad və hörmət prinsipinə əsaslanan sıx strateji tərəfdaşlıq və əməkdaşlığın inkişafı istiqamətində növbəti addımların atılmasında qətiyyətlidir.

Ankarada imzalanan və mühüm əhəmiyyətə malik bu bəyannamənin təkcə onu imzalayan üç ölkənin - Azərbaycan, Türkiyə və Özbəkistanın deyil, ümumilikdə türk dünyasının inkişafı istiqamətində atılmış vacib addım kimi dəyərləndirilməli olduğu da gerçəklikdir.

## Səmərəli əməkdaşlıq platforması

Qeyd edək ki, yanvarın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin Ankara şəhərinə işgüzar səfəri çərçivəsində Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat, ticarət və nəqliyyat nazirlərinin 2-ci üçtərəfli görüşündə iştirak və çıxış edib.

Görüşdə həmçinin Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iştirak ediblər. Nazirlər çıxışlarında gündəlikdə duran mövzular, o cümlədən xarici siyasət və regional əməkdaşlıq məsələləri, ticarət, iqtisadiyyat və investisiya sahəsində əməkdaşlığın artırılması, regional nəqliyyat şəbəkələrini inkişaf etdirməklə nəqliyyat və kommunikasiya sektorunda əməkdaşlığın gücləndirilməsi barədə fikirlərini bildiriblər.

Türkiyədə imzalanan Ankara Bəyannaməsinin mətnində qeyd olunub ki, nazirlər Türkiyə, Azərbaycan və Özbəkistanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını, beynəlxalq hüquq norma və prinsiplərinin və BMT Nizamnaməsinin sarsılmazlığını dəstəkləməyə hazır olduqlarını xüsusi vurğulayıblar.

Üç ölkənin nümayəndələri ticarət, investisiya, sənaye, energetika, nəqliyyat, logistika, rəqəmsallaşma və rabitə sahələrində birgə layihələrin təşviqinə və icrasına hazır olduqlarını bəyan ediblər.

Bəyannamədə Türkiyə, Azərbaycan və Özbəkistanın tranzit potensialının artmasında mühüm rol oynayan Orta dəhliz mövzusuna xüsusi diqqət ayrılıb.

Türkiyə, Azərbaycan və Özbəkistanın böyük tranzit potensialının üzə çıxarılması baxımından əhəmiyyətli olan TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı çərçivəsində tərəfdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb.

## Üç ölkənin regional və beynəlxalq müstəvidə əməkdaşlığı

Ankara Bəyannaməsində üç ölkənin regional və beynəlxalq müstəvidə əməkdaşlığının ümumi maraq və prioritetlərə uyğun şəkildə daha da möhkəmləndirilməsinin əhəmiyyəti, həmçinin Ankara, Bakı və Daşkəndin suverenliyinə və ərazi bütövlüyünə zərər vurmaq cəhdlərinin qarşısının alınması istiqamətində üç ölkənin birgə addım atmaq əzmini dəstəkləmək qeyd olunub.

Sənəddə Orta dəhlizin potensialının və rəqabət qabiliyyətinin artırılmasına töhfə verəcək yeni layihələrin həyata keçirilməsinin vacibliyi vurğulanıb. Bununla bağlı Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələrin daha da inkişaf etdirilməsinə tam dəstək bəyan edilib.

Nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi, regional əlaqələrin və nəqliyyat sistemlərinin dayanıqlılığının gücləndirilməsinə yönəlmiş fəaliyyət planının qəbul edilməsindən məmnunluq ifadə olunub.

Ankara Bəyannaməsində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası mövzusuna ayrıca diqqət ayrılıb.

Sənəddə ölkəmizin işğaldan azad edilmiş ərazilərinə insanların təhlükəsiz və layiqli qayıdışını təmin edəcək səylərin əhəmiyyəti qeyd olunub. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən investisiya layihələrinə xüsusi diqqət yetirildiyi vurğulanıb.

Bəyannamədə Azərbaycanda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) nəticələrindən məmnunluq ifadə olunub.

## Azərbaycanın töhfəsi

Bəyannamənin mətnində də yer aldığı kimi, Orta dəhlizin potensialının və rəqabət qabiliyyətinin artırılması aktual məsələlərdəndir. Vurğulayaq ki, Azərbaycanın Orta dəhliz layihəsi türk dünyası ölkələrinin birliyinə əvəzolunmaz töhfədir. Ölkəmiz bu dəhlizin inkişafı və səmərəliliyi məqsədilə öz ərazisində zəruri infrastrukturu təmin edir.

"Hazırda Orta dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində bir sıra layihələr icra olunur", - deyə ötən ilin noyabrında Qırğızıstanın paytaxtı Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə çıxışı zamanı Prezident İlham Əliyev bildirib. Dövlətimizin başçısı qeyd edib ki, bu layihələr logistika səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına təsir edəcək.

Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu olan Orta Dəhliz Çindən Türkiyəyə, eləcə də Avropa ölkələrinə və əks istiqamətə yükdaşımaları həyata keçirir.

Ümumiyyətlə, türk birliyinin qlobal gücə çevrilməsi üçün daim yeni təşəbbüslər və ideyalar irəli sürən Azərbaycan türkdilli dövlətlərlə hərtərəfli əlaqələrə malik olmaq üçün bütün sahələrdə qarşılıqlı əməkdaşlıq qurmağın tərəfdarıdır. Çünki hazırda dünyada yaranan yeni siyasi, iqtisadi, hərbi qütbləşmələrə qarşı yalnız özümüzün aid olduğumuz ailə - türk dünyasının birgəliyi sayəsində dayanıqlı güc mərkəzi kimi mübarizə apara bilərik.

Azərbaycan, Türkiyə və Özbəkistan arasında imzalanan Ankara Bəyannaməsinin də türk dünyasının birliyinin möhkəmlənməsində və inkişafında əhəmiyyətli rolu olacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 31 yanvar (№ 21).- S.5.